# XX ƏSRİN 20-30-CU İLLƏRİNDƏ AZƏRBAYCANIN ORTA ƏSR ŞƏHƏR VƏ QALALARININ ARXEOLOJİ ÖYRƏNİLMƏSİ

**T.M.DOSTİYEV**
*Bakı Dövlət Universiteti*

Azərbaycanın orta əsr abidələrinin arxeoloji öyrənilməsi tarixini xarakter və əhatə dairəsinə görə bir neçə mərhələyə bölmək olar. Keçən əsrin 20-30-cu illəri arxeologiya elminin təşkili və orta əsr abidələrinin arxeoloji öyrənilməsi nöqteyi-nəzərindən xüsusi bir mərhələni təşkil edir.

Sovet hakimiyyətinin ilk illərindən arxeoloji abidələrin tədqiqi, qeydə alınması və qorunmasını həyata keçirən elmi qurumlar təşkil olunur. 1920-ci ildə «İstiqlal» muzeyi bazasında Azərbaycan Dövlət Muzeyi yaradılır. 1922-ci ildə Şərqşünaslıq və Sosial Elmlər İnstitutu nəzdində Azərbaycan Arxeoloji Cəmiyyəti təsis edilir. Bu zaman Azərbaycan Dövlət Muzeyində isə Azərbaycanın qədim abidələrinin mühafizəsi komissiiyası fəaliyyət göstərirdi. 1923-cü ildə bu sonuncu iki təşkilatın birləşməsi əsasında Xalq Komissarları nəzdində «Azərbaycan Arxeoloji Komitəsi» yaradıldı. Komitə abidələri qeydə almalı, mühafizə etməli və elmi baxımdan öyrənməli idi. Həmin ildə yaradılan «Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti» 20-ci illərdə respublikada arxeoloji və etnoqrafik tədqiqatların başlıca mərkəzinə çevrilir. Diqqətəlayiq haldır ki, 20-ci illərdə Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti, Azərbaycan Arxeoloji Komitəsi və Azərbaycan Dövlət Muzeyi sıx əməkdaşlıq edir, fəaliyyətlərini əlaqələndirirdilər. Cəmiyyət başlıca elmi-tədqiqat müəssisəsi olmaqla arxeoloji qazıntılar və kəşfiyyat axtarışları aparır, onun ekspedisiyalarının aşkar etdiyi maddi mədəniyyət nümunələrini Arxeoloji Komitə qeydə alır və onların Dövlət Muzeyinə verilməsini təmin edirdi (1, s.85).

Bu dövrdə arxeoloji abidələrin qeydə alınması, öyrənilməsi və mühafizəsinin hüquqi əsaslarının yaradılmasına başlanılır. Arxeoloji abidələrin qeydiyyatı, tədqiqi və qorunmasında Azərbaycan SSR Xalq Komissarları Şurasının 4 mart 1920-ci il 20 saylı dekretinin əhəmiyyəti böyük oldu. Həmin dekretlə respublika ərazisindəki arxeoloji abidələrin qeydiyyatı və tədqiqinə nəzarət Azərbaycan Arxeoloji Komitəsinə tapşırıldı (2, s.94). 1927-ci ildə həmin komitə Azərbaycan Asari-ətiqə, İncəsənət və Təbiəti Mühafizə Komitəsinə çevrildi və bu adla 1930-cu ilədək fəaliyyət göstərdi.

Azərbaycan Arxeoloji Komitəsinin Azərbaycan xanlıqları çar Rusiyası tərəfindən işğal olunarkən talanıb aparılmış, Gürcüstan, Moskva və Leninqrad muzeylərində toplanılmış maddi mədəniyyət nümunələrinin geri qaytarılması sahəsindəki səyləri də təqdirəlayiqdir. Azərbaycan Mərkə-

zi İcraiyyə Komitəsi Böyük Rəyasət Heyətinin 7 iyun 1924-cü il tarixli iclasında Arxeoloji Komitənin sədri Tağı Şahbazinin təşəbbüsü ilə «Keçmişin abidələri haqqında» məsələ müzakirə olunmuş, Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi SSRİ-nin muzeylərində mühafizə olunan Bakı, Şamaxı, Gəncə və digər xanlıqların işğalı zamanı talanaraq aparılmış maddi mədəniyyət nümunələrinin geri qaytarılması barədə sərəncam verilməsi üçün Zaqafqaziya və SSRİ Mərkəzi İcraiyyə Komitələri qarşısında məsələ qaldırmağı qərara almış, Arxeoloji Komitəyə və Azərbaycan Dövlət Tarix Muzeyinə müttəfiq respublikaların muzeylərində yerləşən və Azərbaycana məxsus qədim abidələrin siyahısının hazırlanması tapşırılmışdır (3, s. 77-78).

Azərbaycanın orta əsr arxeoloji abidələrinin tədqiqata cəlb olunması baxımından 1924-cü ildə Bakıda keçirilən Ümumazərbaycan diyarşünaslıq qurultayının əhəmiyyəti böyük oldu. Qurultay arxeoloji tədqiqatların əhəmiyyətini diqqətə çəkərək arxeoloji sahədə işlərin bütün respublika miqyasında genişləndirilməsini, tarixi keçmişin yeni abidələrini aşkarlamaq, qeydə almaq, öyrənmək üçün ekspedisiyaların təşkili haqqında qərar qəbul etdi.

20-ci illərin ortalarında və ikinci yarısında orta əsr şəhər və qalalarının arxeoloji öyrənilməsi geniş vüsət alır. Bakı, Şamaxı, Qəbələ, Bərdə, Beyləqan, Xaraba-Gilan şəhər xarabalıqlarının, Gülüstan, Buğurt, Bəllabur, Əlincə. Abşeron qalalarının, Pirsaatçay yaxınlığında və Əlincəçay üzərindəki xanəgah xarabalıqlarının arxeoloji tədqiqinə səy göstərilir. Bakıda hələ 1920-ci ildə Şirvanşahlar saray kompleksində aparılan təmizlənmə və təmir işləri arxeoloji qazıntılarla müşayiət olunurdu (4, s.105-110; 5., 1944). Arxeoloji tədqiqat işləri 1924-1925-ci illərdə də davam etdirilimiş, çöl tədqiqatlarının yekunu haqqında Y.A.Paxomov məlumat vermişdir. (6;7). Qız qalasının da arxeoloji tədqiqi keçən əsrin 20-ci illərinin əvvəllərində başlanılmışdır. Professor Zummerin rəhbərliyi altında bir qrup tələbə Qız qalasında arxeoloji qazıntılar aparmışdır (8, s.119).

Diqqətəlayiq haldır ki, Xaraba-Gilanda 1926-1928-ci illərdə arxeoloji qazıntılar Azərbaycanın Arxeoloji Komitəsinin icazəsi ilə iki mərkəz – Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti və Qafqaz Tarix-Arxeologiya İnstitutu tərəfindən aparılır.

Azərbaycanın Arxeoloji Komitəsinin, Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin və Qafqaz Tarix-Arxeologiya İnstitutunun nəşr orqanlarında ekspedisiyaların çöl tədqiqatları haqqında məlumat verilir. Qəbələ şəhərinin xarabalıqlarının tədqiqinə dair D.Şərifovun (9), Şamaxı şəhəri və onun ətrafındakı qalaların ilkin tədqiqi haqqında C.Aleksandroviç-Nasıfinin (10), Bərdə şəhərinin tarixi ilə bağlı V.M.Sısoyevin (11), Xaraba-Gilan şəhər xarabalıqlarının tədqiqi üzrə V.M.Sısoyevin (12; 13; 14), S.V.Ter-Avetisyanın (15; 16), İ.Əzimbəyovun (17), Əlincə qalasının tədqiqinə dair Mir Heydərzadənin (18), Lənkəran diyarında Bəllabur qalasının təsviri İ.Əzimbəyovun (19), qədim Gəncə şəhəri və Nizami Gəncəvinin qəbrinə dair C.Aleksandroviç-Nasıfinin (20), Pir Hüseyn xanəgahı haqqında V.M.Sısoyevin (21) məqalələri çap olunur. Akademik İ.İ.Meşşaninov xüsusi bir məqaləsində keçən əsrin 20-ci illərində aparılmış arxeoloji tədqiqatların yekunlarını təhlil edərək ümumiləşdirmiş, orta əsr abidələrinin, xüsusilə şəhər yerlərinin öyrənilməsindəki nailiyyətləri də qeyd etmişdir (22).

Diqqətiçəkən cəhətlərdən biri abidələrin qeydə alınması, tədqiqi və mühafizəsi işində yerli diyarşünasların yaxından iştirak etməsidir. Bu baxımdan Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin Naxçıvan şöbəsi daha fəal görünür. Şöbə arxeoloji abidələrin qeydə alınması, tədqiqində fəallıq göstərməklə bərabər abidələrin bərpası və qorunmasını da diqqət mərkəzində saxlayırdı.

Bunu qeyd etmək lazımdır ki, 20-ci illərin sonlarında Naxçıvanın orta əsr abidələrinin öyrənilməsində Qafqaz Tarix-Arxeologiya İnstitutu da fəallıq göstərir. Həmin institutun ekspedisiyası Xaraba-Gilan şəhərgahında apardığı arxeoloji qazıntılardan başqa Culfa abidələrinə maraq göstərir, Culfa şəhər xarabalıqlarını, Culfa karvansarasını qeydə alır (23).

1929-cu ilin oktyabrında Azərbaycan SSR MİK qərarı ilə Azərbaycanı Tətqiq və Tətəbbö Cəmiyyəti yenidən qurularaq Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutuna çevrildi. Cəmiyyətin bütün vəsaiti, kitabxanası, nəşriyyat və elmi kadrları İnstituta verildi (1, s.136).

1930-cu ildə Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutunun nəzdindəki Azərbaycanı öyrənən cəmiyyətin məsul təlimatçısı A.Klimov Salyan-Muğan dairəsinə elmi səfəri zamanı bir neçə orta əsr abidəsini qeydə alır. Onun İlanlıdağdakı orta əsr yaşayış yeri, Qırx-Çıraq, Bəndovan şəhərgahları, Salyan rayonunun Xələc kəndindəki «Qızıl məscid» adlanan son orta əsrlərə aid iri yaşayış yeri haqqında məlumatı diqqətəlayiqdir. A.Klimov bildirir ki, Qırx-Çıraq şəhərgahında 2 saat ərzində istehsal tullantıları arasından 50-dən artıq sikkə toplamışdır. O, burada həm də «Gövurarx»ın qalıqlarını qeydə alır, Qara Çala deyilən sahədə zərbxananın yerləşdiyini bildirir (24).

XX əsrin 30-cu illərində orta əsr şəhərlərinin arxeoloji tədqiqinə diqqət daha da artırılır. 1932-1934-cü illərdə Azərbaycanın qədim abidələrinin mühafizəsi mərkəzi Bakıda Şirvanşahlar sarayının təmir və bərpa işləri ilə əlaqədar saray kompleksinin həyətində arxeoloji qazıntı işləri aparır. Qazıntılar nəticəsində bəlli olur ki, sarayın mərkəzi və ona cənubi-şərqdən birləşən otaqları daha erkən dövrə aid tikili qalıqları üzərində ucaldılmışdır. Aparılan tədqiqatlar əsasında Şirvanşahlar Sarayının plan və kompozisiya quruluşuna dair maraqlı müşahidələr edilir (5). Təmir və bərpa işlərindən sonra Şirvanşahlar saray kompleksi SSRİ EA Azərbaycan Filialının Azərbaycan Tarixi Muzeyinə verilir.

1933-cü ildə akademik İ.İ.Meşşaninovun rəhbərliyi altında Mil düzündə Orta əsr Beyləqan şəhərinin xarabalıqları olan Örənqala şəhərgahında arxeoloji qazıntılar aparılır. Qazıntı işləri üç sahədə: kiçik şəhərin mərkəzində, onun şimal-şərq divarında və kiçik şəhərdən böyük şəhərə keçiddə görülür. Qazıntıların nəticələrini təhlil edən, əldə olunmuş faktiki materialları şərh edən İ.İ.Meşşaninov bəzi səhvlərə yol versə də abidənin xronoloji çərçivəsi, şəhərin meydana gəlib inkişaf etməsində Gövurarxın mühüm rol oynaması haqqında fikirləri diqqətəlayiqdir (25). 1936-cı ildə Örənqalada Ə.K.Ələkbərovun başçılığı ilə kəşfiyyat xarakterli qazıntı işləri aparılır (26). Qazıntı zamanı bişmiş kərpicdən inşa olunmuş tikili qalıqları üzə çıxarılmış, xeyli maddi mədəniyyət qalıqları əldə olunmuşdur. Ekspedisiya şəhər yerindən 200 m aralıdakı təpələrdən birində arxeoloji qazıntı aparmış, burada XII-XIII əsrlərdə yaşayışın olduğunu təsdiqləyən mədəni təbəqə yatımının mövcudluğunu müəyyənləşdirmişdir. Ə.K.Ələkbərov üzə çıxarılan tikili qalıqlarını sənətkarlara

məxsus yaşayış evinin qalıqları kimi şərh etmiş, əldə olunmuş saxsı məmulatının təsnifatını vermiş, Örənqalanın orta əsr Beyləqan şəhərinin xarabalıqları olması, şəhərin XII əsrdə çiçəklənmə çağı keçirməsi haqqında fikirlər irəli sürmüşdür (26).

30-cu illərin ortalarında Şabran şəhərinin öyrənilməsinə ilk təşəbbüs göstərilir. 1935-ci ildə Y.A.Paxomov və S.B.Aşurbəyli Dəvəçi rayonuna elmi səfər edib Şabran şəhərinin xarabalıqlarında kəşfiyyat xarakterli tədqiqat aparırlar. Y.A.Paxomov səfərin yekunları haqqında hesabat yazaraq abidənin geniş təsvirini, toplanmış yerüstü materiallar haqqında məlumat verir. İki il sonra Y.A.Paxomov yenidən Şabran şəhər yerinə ezam olunur. Bakı su kəmərinin inşaatı ilə əlaqədar torpaq işləri görülərkən üzə çıxmış dulus kürəsinin qalıqlarını qeydə alır, buradan xeyli istehsal çıxarları, şirli və şirsiz saxsı məmulat toplayır (27). Həmin materiallar əsasında sonradan V.N.Leviatov Şabran şəhərinin saxsı istehsalına həsr olunmuş xüsusi məqaləsini yazır, şəhərdə dulusçuluğun yüksək inkişaf səviyyəsinə çatması fikrini irəli sürür (28).

1935-1937-ci illərdə Gəncə diyarşünaslıq muzeyinin fondlarını arxeoloji materiallarla zənginləşdirmək məqsədi ilə muzeyin direktoru Y.P.Xadarin Gəncə şəhər xarabalıqlarının sağ sahil hissəsindən şimalda, memarlıq abidələrinin mühafizə olunduğu ərazidə məhdud, həm də sistemsiz qazıntılar aparır və topladığı arxeoloji materialları muzeyin fondlarında yerləşdirir.

Keçən əsrin 30-cu illərində Cənubi Azərbaycanda əcnəbi alimlər bəzi tədqiqatlar aparırlar. Onları daha çox Təxti Süleyman şəhərgahı maraqlandırır. 1937-ci ildə E.F.Şmit Təxti-Süleyman şəhərgahının aerofotoçəkilişini edir. Həmin ilin oktyabrında A.İ.Poupun rəhbərliyi ilə ABŞ-ın İran incəsənəti və arxeologiyası İnstitutunun ekspedisiyası şəhərgahda çöl tədqiqatları aparır (29).

XX əsrin 30-cu illərinin ortalarında həm də Azərbaycanın arxeoloji abidələrinin tədqiqinə dair ümumiləşdirilmiş əsərlər yazılır. İ.İ.Meşşaninov və A.K.Ələkbərovun birgə yazdıqları məqalə (30) bu qəbildən olub sovet hakimiyyətinin 15 ili ərzində respublikada aparılmış arxeoloji tədqiqatlara yekun vurur, əldə olunmuş başlıca nailiyyətlər qeyd olunur. Həmin əsərdə orta əsr şəhər xarabalıqlarının arxeoloji tədqiqinin mühüm nəticələri də öz əksini tapmışdır.

Böyük Azərbaycan şairi Nizami Gəncəvinin anadan olmasının 800 illik yubleyi ilə əlaqədar olaraq orta əsr şəhərlərinin arxeoloji tədqiqinə diqqət artırılır, Gəncə, Şamaxı və Bakıda arxeoloji qazıntılar artırılır. Şamaxıda İ.M.Cəfərzadə, Y.A.Paxomov və Ə.A.Ələsgərzadə tədqiqatlar aparırlar. İ.M.Cəfərzadə şəhərin məhəllələrinin köhnə adlarının müəyyənləşdirilməsi üzrə araşdırmalar aparır, pir və məscidlərin xarabalıqlarını tədqiq edir (31), 1938-ci ildə Gülüstan qalasında arxeoloji tədqiqat aparan Y.A.Paxomov qalanın gizli yolları və su təchizatı ilə bağlı maraqlı nəticələr irəli sürür (32).

1937-1939-cu illərdə Bakının İçərişəhər sahəsində, Şirvanşahlar sarayının həyətində, 1941-ci ilin yayında isə divanxananın qərb hissəsində arxeoloji qazıntılar aparılır, V.N.Leviatov qazıntıların nəticələri, əldə olunmuş materiallar haqqında məqalə və kitabça çap etdirir (5). Həmin illərin arxeoloji qazıntılarının nəticələrinə və memarlıq tədqiqatlarına əsaslanmaqla Şeblıkin İ.P. tərəfindən yazılmış kitabça da Şirvanşahlar saray kompleksinin öyrənilməsi baxımından maraq doğurur (33).

1939-1940-cı illərdə isə Y.A.Paxomov Bayıl qəsrində ilк qazıntılar aparır və bu qalanın sirlərini açmağa cəhd göstərir. Qazıntılar zamanı üzə çıxarılan, üzərində кitabələr olan daş lövhələrdən beşi daha böyüк marağa səbəb olur. Ardıcıl düzülmüş həmin daş lövhələr üzərində qəsrin hicri 632-ci ildə (1234/1235) inşa olunduğu həкк edilmişdi (34; 35).

Y.A.Paxomov 1938-ci ildə Tovuz rayonunda, Kür çayının sahilində Torpaqqala şəhər yerini qeydə alıb burada apardığı ilкin tədqiqatlar əsasında abidənin XI-XIII əsrlərə aid şəhər tipli iri yaşayış yeri olduğu ehtimalını irəli sürmüşdür.

Nizami Gəncəvinin yaşadığı, cahanşümul əsərləri yazıb yaratdığı, orta çağda Arranın ən iri sənətкarlıq-ticarət və mədəni mərкəzi olmuş Gəncə şəhərinin mədəni mühiti ilə ölкə zəhmətкeşlərini tanış etməк üçün 1938-1940-cı illərdə şəhər xarabalıqlarında İ.M.Cəfərzadənin rəhbərliyi ilə arxeoloji qazıntılar aparılır. Qazıntılarda o zamanın bütün aparıcı mütəxəssisləri – S.M.Qazıyev, V.N.Leviatov, V.Qraçev, O.İone, Y.Hummel, İ.Şeblıкin yaxından iştiraк edirlər. Qazıntıların gedişatı və nəticələri haqqında eкspedisiya rəisi İ.M.Cəfərzadənin məqalələri ( 36; 37; 38) və monoqrafiyası (39) çap olunur. Eкspedisiyanın üzvü V.N.Leviatov Gəncə şəhər xarabalıqlarında aparılmış qazıntıların nəticələrinə əsaslanmaqla «Gəncə Böyüк Nizaminin vətənidir» adlı məqalə (40), qazıntılar zamanı əldə olunmuş materiallar əsasında isə orta əsr Gəncə şəhərinin saxsı məmulatından bəhs edən кitab yazır (41). Eyni zamanda M.M.Altmanın yazılı qaynaqlar və arxeoloji qazıntıların nəticələrinə əsaslanan monoqrafiyası (42). İ.P.Şeblıкinin Gəncənin orta əsr memarlığı üzrə məqalələri (43) çap olunur.

Yuxarıda qeyd olunanlara yeкun vuraraq belə nəticəyə gəlməк olar кi, XX əsrin 20-30-cu illəri Azərbaycan arxeologiyasının təşəккül və inкişafında mühüm bir mərhələni təşкil etmiş, bu dövrdə orta əsr şəhər və qalalarının elmi əsasda arxeoloji öyrənilməsinin əsası qoyulmuşdur. Bir sıra orta əsr arxeoloji abidələrinin qeydə alınması və onlar haqqında məlumatın elmi dövriyyəyə daxil edilməsini dövrün mühüm nailiyyətlərindən hesab etməк olar. Bununla belə çöl tədqiqatlarının əsasən üfüqi xaraкter daşıması, Qədim Gəncə şəhər xarabalıqları istisna olmaqla digər orta əsr abidələrində geniş sahəli arxeoloji qazıntıların aparılmaması 20-30-cu illər üçün səciyyəvidir. Üzə çıxarılan arxeoloji комpleкslərin təhlili və elmi ədəbiyyatda şərhi də arzuolunan səviyyədə deyildi.

## ƏDƏBİYYAT


1.Керимова Т. Из истории Национальной академии наук Азербайджана. Баку, 2005.
2 К истории Азербайджанского Археологического Комитета. // Известия Азербайджанского Археологического Комитета. Вып. 1. Баку,1925.
3.Məhərrəmov E. Talanmış abidələrimiz barədə. // Azərbaycan Arxeologiyası, 1999, №1-2.
4.Пахомов Е.А. Бакинский дворец Ширваншахов. // Путь школы, 1924, №3, с.105-111.
5.Левиатов В.Н. Памятники азербайджанской культуры (Бакинский дворец Ширваншахов). Баку, 1944.
6. Пахомов Е.А. Первоначальная очистка шахского дворца в Баку. // Известия ААК, 1926, вып.2, с.3-4.
7. Пахомов Е.А. Отчет о работах по шахскому дворцу в Баку. // Известия ААК, 1926, вып.2, с.4-6.
8. Гусейнова С. Становление азербайджанской советской археологии и археологические

изучения города Баку (1920-1930 гг.). // Проблемы истории Азербайджана. Баку, 1992.
9. Шарифов Д. Обследование развалин Кабалы. // Известия ООИА, 1927, №4,с.176-184
10 Александрович-Насыфи Дж. Шемаха. //Известия Азербайджанского Археологического Комитета, 1926, №2,
11. Сысоев В.М. Бердаа: Древности в селении Берда Гянджинского уезда. // Известия ААК, 1926, вып.2, с.43-63
12. Сысоев В.М. Древности Нахичеванской АССР: Нахичевань, Ордубад, Ордубадский уезд, Хараба-Гилан. Баку, 1928.
13. Сысоев В.М. Нахичевань на Араксе и древности Нахичеванской АССР. Отчет о поездке летом 1926 г. // Известия АзКОМСТАРИС, 1929, вып.4, тетрадь 2, с.87-121.
14. Сысоев В.М. Нахичеванский край (Нах.АССР). Отчет о поездке летом 1927 г. // Известия АзКОМСТАРИС, 1929, вып.4, тетрадь 2, с.123-215.
15. Тер-Аветисян С.В. К археологическому обследованию Хараба-Гилана: Предварительные сообщения. // Известия КИАИ, 1927, т.6
16. Тер-Аветисян С.В. Сообщение об экспедиции по обследованию развалин городища Хараба-Гилан. // Бюллетень КИАИ, 1928, №4
17. Азимбеков И. Мусульманские надписи в Тифлисе, Эривани, Нахичевани, Карабагларе и др. // Известия Азкомстарис, 1929, вып.4, тетрадь 2.
18. Mir Huydərzadə. Əbrəkonus dairəsi məşhur Əlincəçay sahilində vaqe bir neçə kəndlərin və Əlincə qalasının tədqiqi. // Azərbaycanı öyrənmə yolu, 1930, □4-5, s.78-80.
19. Азимбеков И. Древности Ленкоранского края. // Известия Азербайджанского Археологического Комитета, 1926, №2, с.67-82
20. Александрович-Насыфи Дж. Гянджа и могила Низами.// Известия Азербайджанского Археологического Комитета, 1926, №2, с.20
21. Сысоев В.М. Древности в Ханега близ села Наваги. Известия ААК, 1925, вып.1, с.50-68.
22. Мещанинов И.И. Изучение доисторических памятников Азербайджана за последние пять лет. // Известия ООИА, 1929, вып.8.
23. Экспедиции Кавказского историко-археологического института в Нахичеванскую АССР, в район Джульфы и Апракуниса. // Бюллетень КИАИ в Тифлисе, 1931, №6
24. Климов А.А. Отчет о поездке в Сальяно-Муганский округ 21 мая-11 июня 1930 г. // НАИИ НАН Азербайджана, №246
25. Мещанинов И.И. Краткий осведомительный отчет о работе Мильской экспедиции в 1933 г. // Труды АзФАН СССР, т.XXV. Баку, 1936
26. Алекперов А.К. Исследования по археологии и этнографии Азербайджана. Баку, 1960
27. Пахомов Е.А. Археологические экспедиции по районам Азербайджанской ССР. // Известия АзФАН СССР, 1938, №3, с.31-37.
28. Левиатов В.Н. Две марки керамических мастерских Шабрана. // Докл. АН Азерб.ССР, 1946, №2, с.84-87.
29.Nauman Rudolf und Elisabeth. Takhti-Suleyman. Ausrabungles Deutschen archaologischen institutes in Iran. Munchen,1976
30. Мещанинов И.И., Алекперов А.К. История материальной культуры за 15 лет. // Наука в Азербайджанской ССР за 15 лет. Баку, 1936.
31. Джафарзаде И.М. Из Баку в Шемаху. // НАИИ НАН Азербайджана, д.60.
32. Пахомов Е.А.Краткий отчет о работах экспедиции ИИЯЛ Азербайджанского филиала АН по обследовании развалин крепости Гюлистан близ Шемахи в июле 1939 г. // НАИИ НАН Азербайджана, д.358
33. Щеблыкин И.П. Краткий очерк истории дворца Ширваншахов в Баку. Баку, 1939, 43 с.
34. Пахомов Е.А. Обследование развалин крепости в Бакинской бухте. // Известия Аз.ФАН СССР, 1940, №6.
35.Пахомов Е.А. Уточнение даты крепости в Бакинской бухте. // Известия Аз.ФАН

СССР, 1941, №1, с.10-18.
36 Джафарзаде И.М. Обследование Старой Гянджи. Отчет археологической экспедиции Института истории, языка и литературы Азербайджанского филиала Академии наук СССР. // Известия АзФАН СССР, 1939, №3, с.67-76
37. Джафарзаде И.М. Археологические раскопки Старой Гянджи, родины Низами Гянджави. // Известия Академии наук СССР, отделение литераты и языка, 1941, №2, с.74-84.
38. Джафарзаде И.М. Старая Гянджа (родина Низами). // Низами. Баку, 1947, т.4, с.194-221.
39. Джафарзаде И.М. Историко-археологический очерк Старой Гянджи (родина Низами). Баку, 1949.
40. Левиатов В.Н. Гянджа – родина Великого Низами (Археологические раскопки Азербайджанского филиала Академии наук в 1938-1940 гг.). // Литературный Азербайджан, 1941, №4, с.68-74.
41. Левиатов В.Н. Керамика Старой Гянджи. Баку, 1940.
42. Альтман М.М.Исторический очерк города Ганджи. Баку, 1949
43. Щеблыкин И.П. Архитектурные памятники эпохи Низами в Азербайджане. // Известия АН СССР, отд. Лит. И языка, 1941, №2, с.58-73.

## АРХЕОЛОГИЧЕСКОЕ ИЗУЧЕНИЕ СРЕДНЕВЕКОВЫХ ГОРОДОВ И КРЕПОСТЕЙ АЗЕРБАЙДЖАНА В 20-30 ГОДАХ XX ВЕКА

**Т.М.ДОСТИЕВ**

**РЕЗЮМЕ**

В данной статье рассматривается организация археологической науки в Азербайджане в 20-30 годах XX века, излагаются результаты археологических изысканий и раскопок, указывается степень отражения итогов исследований в научных изданиях.

## ARCHAEOLOGICAL RESEARCHES OF THE MEDIEVAL TOWNS AND CASTLES OF THE AZERBAIJAN, DURING THE 20-30S OF THE XX CENTURIES

**T.M.DOSTIYEV**

**SUMMARY**

This article is dealing with the organization of the archeological science in Azerbaijan Republic in 20-30s of the XX century where being stated the results of the archeological findings and the excavations, being shown the degree of the attraction of the results of research in scientific publications.